**"Qala Sığorta" Açıq Səhmdar Cəmiyyətinin**
**2023-cü il il üzrə İllik İdarəetmə Hesabatı**

| | |
|---|---|
| Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | "Qala Sığorta" Açıq Səhmdar Cəmiyyəti<br>"Qala Sığorta" ASC<br>VÖEN: 1700066901<br>Tarix: 15.01.1999 |
| Emitentin hüquqi ünvanı və olduğu yer | Hüquqi ünvan: Bakı şəhəri, Nizami küçəsi, ev 96<br>Faktiki ünvan: Bakı şəhəri, Yasamal rayonu, Azərbaycan pr.14, 221-ci məhəllə |
| Eemitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları | "AIG Caspian Insurance Company Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyəti<br>"Çartis Azərbaycan" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti |
| Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar | **Yeni yaranmış:**<br>**Naxçıvan nümayəndəliyi**<br>Ünvanı: Naxçıvan şəhəri, A.Cəlilov küçəsi 19<br>**Yasamal filialı**<br>Ünvanı: Bakı şəhəri, Yasamal rayonu, 535-ci məhəllə, Landau küçəsi, ev 6, mənzil 49.<br>**Abşeron nümayəndəliyi**<br>Ünvan: Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev prospekti 11, ev 4<br>**Ləğv olunmuş:**<br>**Yasamal nümayəndəliyi**<br>Ünvanı: Bakı şəhəri, Yasamal rayonu, 535-ci məhəllə, Landau küçəsi, ev 6, mənzil 49. |
| Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti | Yoxdur |
| Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı | Yoxdur |
| Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri | Sığorta və təkrarsığorta fəaliyyəti |
| Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri | Sığorta fəaliyyəti<br>087823 saylı, 16.12.2015-ci il tarixli müddətsiz lisenziya<br>Təkrarsığorta fəaliyyəti<br>TSF-0001 saylı, 09.01.2023-cü il tarixli 5 illik lisenziya |
| Emitentin təklif etdiyi məhsullar və xidmətlər | Sığorta məhsulları |
| Emitentin işçilərinin sayı və onun rüblük dinamikası | 195 |
| Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı | **Direktorlar Şurası:**<br>İbrahimov Kamal Mirsahib oğlu (sədr)<br>Rəhmanov Aydın Səməd oğlu (sədr müavini)<br>Bayramlı Aynur Əziz qızı (üzv)<br>Hüseynov Şamil Kazım oğlu (üzv)<br>Gülməmmədov Elxan Zakir oğlu (müstəqil üzv)<br>**İdarə Heyəti:**<br>Allahverdiyev Fuad Kamran oğlu (sədr)<br>Yunsurov Taleh Zəkulla oğlu (sədr müavini)<br>Çəndirli Rafael Ziyaddin oğlu (üzv)<br>**Təftiş Komissiyası:**<br>Hümmətov Polad Akif oğlu (sədr)<br>Məmmədli Gündüz Zakir oğlu (sədr müavini)<br>**Daxili Audit Xidmətinin rəhbəri**<br>Babayev Yasin Sultan oğlu |
| Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı | |
| Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı | |

| | |
|---|---|
| Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı) | "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti" ASC<br>Bakı şəhəri, Xətai rayonu, 8 Noyabr pr., ev 175<br>VÖEN: 2006337891<br>Nizamnamə kapitalındakı payı: 14.2857 % |
| Emitentin səhmdarlarının (payçılarının) hesabat ili ərzində keçirilmiş yığıncaqları barədə məlumat:<br>Yığıncağın keçirilmə tarixi və yeri (ünvan)<br>Ümumi yığıncaqda qəbul edilmiş qərarlar | **Tarixi: 18.01.2023**<br>Yeri: Bakı şəhəri, Yasamal rayonu, Azərbaycan prospekti 14, 221-ci məh.<br>Qərar: 2023-cü il üzrə Cəmiyyətin büdcəsinin təsdiqi, 2022-ci il üzrə Cəmiyyətin müstəqil auditorunun seçilməsi, xalis mənfəətin bölüşdürülməsi və bəzi investisiya qiymətli kağızlarının özgəninkiləşdirilməsi barədə.<br>**Tarixi: 15.03.2023**<br>Yeri: Bakı şəhəri, Yasamal rayonu, Azərbaycan prospekti 14, 221-ci məh.<br>Qərar: Cəmiyyətin nizamnamə kapitalının artırılması və nizamnamə kapitalının artırılması ilə bağlı Nizamnaməyə ediləcək dəyişikliyin həyata keçirilməsi və dövlət qeydiyyatına alınması barədə.<br>**Tarixi: 23.06.2023**<br>Yeri: Bakı şəhəri, Yasamal rayonu, Azərbaycan prospekti 14, 221-ci məh.<br>Qərar: Cəmiyyətin maliyyə və illik idarəetmə hesabatının təsdiq edilməsi barədə.<br>**Tarixi: 04.10.2023**<br>Yeri: Bakı şəhəri, Yasamal rayonu, Azərbaycan prospekti 14, 221-ci məh.<br>Qərar: Təftiş Komissiyasının üzvlərinin səlahiyyət müddətinin uzadılması.<br>**Tarixi: 07.11.2023**<br>Yeri: Bakı şəhəri, Yasamal rayonu, Azərbaycan prospekti 14, 221-ci məh.<br>Qərar: Cəmiyyətin əlavə səhmlərin buraxılması yolu ilə nizamnamə kapitalının artırılması barədə 15.03.2023-cü il tarixli qərarına dəyişiklik edilməsi barədə. |
| Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat | |
| Emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar, Əqdin məbləği, Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi | Yoxdur |
| Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar, bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği, aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi | |
| İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi | 13.06.2024 |
| Hesabatın açıqlanma mənbəyi | www.qala-insurance.az |

Fuad Allahverdiyev ____________________

Rəşad Ağayev____________________

**31 DEKABR 2023-Cİ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT**

Rəhbərlik **«Qala Sığorta» ASC-nin** 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə başa çatan il üzrə maliyyə nəticələri, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri düzgün əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazılanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə;

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

Cəmiyyətin daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılmasına, tətbiqi və saxlanılmasına;
Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə, onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərini aparılmasına;
Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.
Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə başa çatan il üzrə maliyyə hesabatları 15.03.2024-cü il tarixində rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

**Cəmiyyət tərəfindən:**

***İdarə Heyətinin Sədri***
*Allahverdiyev Fuad Kamran oğlu*

***Baş mühasib***
Ağayev Rəşad Fazil oğlu

"15 mart" 2024-cü il

CASPIAN CONSULTING & PARTNERS

Zərifə Əliyeva küçəsi 93,
BEGOC Biznes Mərkəzi,6-cı mərtəbə
AZ1000 Bakı, Azərbaycan.
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: office@cc.baku.az
veb səhifə: www.caspian-consulting.com

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**« Qala Sığorta » ASC-nin**
**Təsisçisinə və Rəhbərliyinə**

**Rəy :** Vc3GAfe2hY

Biz **« Qala Sığorta »** ASC-nin 31 dekabr 2023-cü il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülassəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.
Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**
Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**
Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının qanunvericiliyinə və MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının

hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tətib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər şərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"Caspian Consulting and Partners" MMC

Direktor:Elnurə Abdinova ____________

Auditor: Adışirin Ağa-zadə ____________

Tarix: 15.03.2024

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti Caspian Consulting and Partners Limited Liability Company Azerbaijan Republic

"Qala Sığorta" ASC
31 Dekabr 2023-cü il tarixinə
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

*Azərbaycan manatı ilə*

| | Qeyd | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıqlar | 5 | 1 162 722,00 | 1 120 232,00 |
| Qeyri-maddi aktivlər | 6 | 245 619,00 | 269 302,00 |
| Əsas vəsaitlərin kapitallaşdırılması | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| Uzunmüddətli maliyyə aktivləri | 7 | 400,00 | 1 710,00 |
| İştrak payı metodu ilə uçota alınmış investisiyalar | 9 | 312 500,00 | 312 500,00 |
| Sair uzunmüddətli aktivləri | 8 | 500 000,00 | 600 000,00 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **2 221 241,00** | **2 303 744,00** |
| **Qısamüddətli aktivlər** | | | |
| Debitor borcları | 10 | 5 290 499,00 | 4 986 753,00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 1 806 635,00 | 7 039 796,00 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 12 | 7 115 276,00 | 5 822 997,00 |
| Qısamüddətli maliyyə aktivləri | 7 | 53 059 402,00 | 42 464 700,00 |
| Sair qısamüddətli aktivlər | 8 | 397 757,00 | 404 615,00 |
| Sair aktivlər | | 70 777,00 | 66 677,00 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **67 740 346,00** | **60 785 538,00** |
| **CƏMİ AKTİVLƏR** | | **69 961 587,00** | **63 089 282,00** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | | 8 944 447,00 | 8 944 447,00 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 17 | 17 357 002,00 | 15 464 360,00 |
| **CƏMİ KAPİTAL** | | **26 301 449,00** | **24 408 807,00** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Sığorta ehtiyatları | 13 | 37 673 123,00 | 22 671 803,00 |
| Qarşısıalınma tədbirləri fondu | 13 | 869 867,00 | 673 320,00 |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər | 13 | 2 109 120,00 | 1 789 749,00 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **40 652 110,00** | **25 134 872,00** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Kreditor borcları | 13 | 2 737 115,00 | 13 464 873,00 |
| Sair qısamüddətli öhdəliklər | 13 | 270 914,00 | 80 730,00 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **3 008 029,00** | **13 545 603,00** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **43 660 139,00** | **38 680 475,00** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **69 961 588,00** | **63 089 282,00** |

***İdarə Heyətinin Sədri***
*Allahverdiyev Fuad Kamran oğlu*

***Baş mühasib***
Ağayev Rəşad Fazil oğlu

"15 mart" 2024-cü il

**"Qala Sığorta" ASC**
**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT**
**31 Dekabr 2023-cü il tarixinə**

*Azərbaycan manatı ilə*

| | Qeyd | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Gəlirlər** | | | |
| Əsas əməliyyat gəliri | 14 | 65 127 257,00 | 41 396 963,00 |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi | | (13 709 040,00) | (1 268 947,00) |
| İnvestisiya gəlirləri üzrə | | 2 852 104,00 | 1 922 561,00 |
| Subroqasiya gəlirləri | | 219 791,00 | 234 090,00 |
| Sair gəlirlər | | 889 361,00 | 133 340,00 |
| **Ümumi gəlirlər** | | **55 379 473,00** | **42 418 007,00** |
| **Xərclər** | | | |
| Əsas əməliyyat xərcləri | 15 | (25 179 558,00) | (15 534 660,00) |
| İşlərin aparılması xərcləri | 16 | (17 841 272,00) | (13 516 825,00) |
| Sair xərclər | | (8 260,00) | (2 941,00) |
| **Ümumi xərclər** | | **(43 029 090,00)** | **(29 054 426,00)** |
| **Maliyyə mənfəəti** | | **12 350 383,00** | **13 363 581,00** |
| **Vergiqoymadan əvvəl mənfəət** | 17 | **12 350 383,00** | **13 363 581,00** |
| Mənfəət vergisi | 17 | (2 457 741,00) | (2 796 337,00) |
| **Hesabat dövründə xalis mənfəət** | 17 | **9 892 642,00** | **10 567 244,00** |

***İdarə Heyətinin Sədri***
*Allahverdiyev Fuad Kamran oğlu*

***Baş mühasib***
Ağayev Rəşad Fazil oğlu

"15 mart" 2024-cü il

**“Qala Sığorta” ASC**
**31 Dekabr 2023-cü il tarixində bitən il üzrə**
**Kapitalda Dəyişikliklər haqqında Hesabat**

| *Azərbaycan manatı ilə* | Qeyd | Nizamnamə Kapitalı | Bölüşdürülməm iş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il tarixinə qalıq** | | **8 050 000,00** | **1 693 600,00** | **9 743 600,00** |
| 2020-ci il üzrə kapital artımı | | - | - | - |
| **2020-ci il üzrə cəmi məcmu mənfəət / (zərər)** | 17 | - | **2 140 539,00** | **2 140 539,00** |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | | **8 050 000,00** | **3 834 139,00** | **11 884 139,00** |
| 2021-ci il üzrə kapital artımı | | **894 447,00** | - | **894 447,00** |
| Bölüşdürülməmiş mənfəətin istifadəsi | | - | **(2 310 040,00)** | **(2 310 040,00)** |
| **2021-ci il üzrə cəmi məcmu mənfəət / (zərər)** | 17 | - | **9 373 017,00** | **9 373 017,00** |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | | **8 944 447,00** | **10 897 116,00** | **19 841 563,00** |
| Ödənilmiş dividendlər | | - | (6 000 000,00) | (6 000 000,00) |
| **2022-ci il üzrə cəmi məcmu mənfəət / (zərər)** | 17 | - | **10 567 244,00** | **10 567 244,00** |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | | **8 944 447,00** | **15 464 360,00** | **24 408 807,0** |
| Ödənilmiş dividendlər | | - | (8 000 000,00) | (8 000 000,00) |
| **2023-cü il üzrə cəmi məcmu mənfəət / (zərər)** | 17 | - | **9 892 642,00** | **9 892 642,00** |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | | **8 944 447,00** | **17 357 002,00** | **26 301 449,00** |

***İdarə Heyətinin Sədri***
*Allahverdiyev Fuad Kamran oğlu*

***Baş mühasib***
Ağayev Rəşad Fazil oğlu

“15 mart” 2024-cü il

“Qala Sığorta” ASC

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
**31 Dekabr 2023-cü il tarixinə**

*Azərbaycan manatı ilə*

| | Qeyd | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Alınmış sığorta haqları | | 66 493 314,00 | 37 013 689,00 |
| Təkrarsığortaçılardan alınmış sığorta ödənişləri | | 561 071,00 | 704 486,00 |
| Subroqasiya | | 259 756,00 | 233 779,00 |
| Sair | | (13 949 502,00) | (1 906 763,00) |
| **Cəmi Daxilolmalar:** | | **53 364 639,00** | **36 045 191,00** |
| Ödənilmiş təkrarsığorta haqları (komissiya çıxılmaqla) | | (13 288 007,00) | (7 587 542,00) |
| Sığorta ödənişləri, brutto | | (6 276 319,00) | (5 786 729,00) |
| Ödənilmiş komissiya xərcləri | | (5 953 855,00) | (4 722 015,00) |
| Qaytarılan sığorta haqları | | (240 152,00) | (104 090,00) |
| Ödənilmiş əməliyyat xərclər | | (7 612 439,00) | (6 288 546,00) |
| Ödənilmiş vergilər | | (4 654 058,00) | (4 267 842,00) |
| **Cəmi məxariclər:** | | **(38 024 830,00)** | **(28 756 764,00)** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **15 339 809,00** | **7 288 427,00** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| Alınmış faiz gəlirləri | | 698 731,00 | 553 841,00 |
| Banklarda yerləşdirilmiş müddətli depozitlərdə xalis (artım)/azalma | | 5 600 000,00 | 2 340 000,00 |
| Satıla bilən investisiya qiymətli kağızlarının satılması/(alınması) | | (18 512 249,00) | (11 637 591,00) |
| Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlərin alınması | | (360 475,00) | (94 346,00) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(12 573 993,00)** | **(8 838 096,00)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Nizamnamə kapitalının artırılması | | | |
| Ödənilmiş dividendlər | | (8 000 000,00) | (6 000 000,00) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(8 000 000,00)** | **(6 000 000,00)** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə məzənnə fərqindən yaranan mənfəət(zərər) | | 1 023,00 | (1 025,00) |
| **Pul vəsaitlərinin həcminin xalis artımı/azalması** | 11 | **(5 233 161,00)** | **(7 550 694,00)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 11 | **7 039 796,00** | **14 590 490,00** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 11 | **1 806 635,00** | **7 039 796,00** |

*İdarə Heyətinin Sədri*
*Allahverdiyev Fuad Kamran oğlu*

*Baş mühasib*
Ağayev Rəşad Fazil oğlu

“15 mart” 2024-cü il